DÖVLƏT İMTAHAN MƏRKƏZİ

DÖVLƏT İMTAHAN MƏRKƏZİ

www.dim.gov.az | www.abiturient.az | www.mekteb.edu.az

# Buraxılış imtahanları – 2026
# Şagird və valideynlər üçün Yol Xəritəsi

DÖVLƏT İMTAHAN MƏRKƏZİ

# İmtahan həftəsi görülməli işlərin siyahısı




**1.** İmtahana buraxılış vərəqəsini **dim.gov.az** saytından çap edin və ya təhsil aldığınız məktəbdən əldə edin

**2.** Şəxsiyyət vəsiqənizin yerini müəyyənləşdirin





DÖVLƏT İMTAHAN MƏRKƏZİ
2024/2025-ci tədris ili üçün ümumi (9 illik) orta təhsil səviyyəsi üzrə buraxılış imtahanı
İMTAHANA BURAXILIŞ VƏRƏQƏSİ
İMTAHANDA İŞTİRAK ETMƏK ÜÇÜN AŞAĞIDAKILARA ƏMƏL ETMƏLİSİNİZ:
ŞAGİRDƏ QADAĞANDIR:

**3.** Şəxsiyyət vəsiqəniz şəkilsizdirsə və ya vəsiqədəki şəkillə real görünüşünüzdə uyğunsuzluq varsa təhsil aldığınız məktəbdən fotoşəkilli arayış alın



# İmtahan həftəsi görülməli işlərin siyahısı



4. Mütləq qara və ya tünd göy rəngdə yazan, mürəkkəb axıtmayan, sadə, diyircəkli qələm götürün




5. İmtahan binasının yerini buraxılış vərəqəsindən dəqiqləşdirin və gediş vaxtını planlaşdırın

6. Özünüzlə plastik şüşədə qazsız, sadə su götürün



# İmtahan günü strategiyası: Evdən imtahan zalına doğru



- **Səhərçağı:** Vərdiş etdiyiniz yüngül səhər yeməyi yeyin. Yeni qidalardan qaçın ki, imtahan vaxtı çətinliklə qarşılaşmayasınız.
- **Rahatlıq önəmlidir:** Sizi sıxmayan, hava şəraitinə uyğun geyim seçin. Özünüzü rahat hiss etmək fokuslanmağınıza kömək edəcəkdir.
- **Yol planı:** Tıxac və gözlənilməz halları nəzərə alaraq evdən tez çıxın. Buraxılış vərəqənizdə qeyd olunan imtahan binasının giriş qapısını tapın.
- **Son saata qədər təkrar etməyin:** Binanın qarşısında kitab oxumaq sadəcə həyəcanı artırır. Beyninizi dincəldin və özünüzə inanın.

# İmtahan günü – Binaya giriş qaydaları

•**Vaxtında gəlin:** Buraxılış vərəqəsində göstərilən vaxtda binanın önündə olun.


DÖVLƏT İMTAHAN MƏRKƏZİ
2024/2025-ci tədris ili üçün ümumi (9 illik) orta təhsil səviyyəsi üzrə buraxılış imtahanı

100

İMTAHANA BURAXILIŞ VƏRƏQƏSİ

2414844s

İş nömrəsi :
MƏMMƏDOV MƏMMƏD ƏHMƏD
Şəxsiyyəti təsdiq edən sənədin seriya və nömrəsi, FİN :
Bölmə : Azərbaycan
Sinif : 9
İmtahan fənləri : Azərbaycan dili, riyaziyyat, xarici dil (ingilis dili)
İmtahan keçirilən bina : Səbail rayonu 163 N-li tam orta məktəb -yeni korpus, A.Məmmədov küçəsi, 86
Mərtəbə : 2 Zal : 1074 Sıra : Yer :
İmtahanın keçirildiyi ünvana saat 09:30-dan gec olmayaraq gəlmək lazımdır.
İmtahan 13 aprel 202 -ci il tarixdə saat 11:00-da başlayır.

Dövlət İmtahan

Cavab vərəqini təhvil alan nəzarətçinin İMZASI

Yaddaş kitabçasını buradan çap edə bilərsiniz: eservices.dim.gov.az/sagirdbv/pdf/shagird_yaddas_9_202..pdf

Bu imtahanda əldə etdiyiniz nəticəni öyrənmək üçün kodunu Azercell, Bakcell, Nar və ya Naxtel nömrəsindən 7727 qısa nömrəsinə göndərin.

•**Gecikməyin:** İmtahanın başlanmasına 15 dəqiqə qalmış bina qapıları bağlanır, gecikənlər içəri buraxılmır.

•**Yoxlanış:** Girişdə buraxılış rejimi əməkdaşlarına sənədləri təqdim edib yoxlamadan keçmək mütləqdir.



•**Zala daxil olma:** Buraxılış vərəqində qeyd edilən müvafiq kodlu zala gedin, öz sıra və yerinizdə əyləşin.



# İmtahan sənədləri ilə davranış qaydaları

## Cavab vərəqini necə doldurmalı ?

• **Doğruluğu yoxlayın:** Ad, soyad və variantınızın sizə məxsus olduğundan əmin olun, uyğunsuzluq varsa dərhal nəzarətçiyə bildirin.

• **Bəyannaməni imzalayın:** İmzadan sonra siz köçürməyəcəyinizə və qaydalara əməl edəcəyinizə dair öhdəlik götürürsünüz.

• **Kodlaşdırma:** Dairələri tam qaralayın, çərçivədən kənara çıxmayın və vərəqi əzməyin.

• **Riyazi məsələlər :** Yazılı tapşırıqlarda həllin bütün mərhələləri, istifadə olunan teorem və xassələr aydın göstərilməlidir.



# İmtahanın məzmunu və vaxt bölgüsü

- **Müddət:** İmtahan ümumilikdə 3 saat davam edir.

- **Sualların bölgüsü:**

- **Xarici dil:** 30 tapşırıq.

- **Tədris dili:** 30 tapşırıq.

- **Riyaziyyat:** 25 tapşırıq.

- **Dinləmə mətni:** Audiofayl cəmi 2 dəfə səsləndirilir;
bu müddət ərzində suallarla tanışlıq üçün xüsusi vaxt ayrılır.


AZƏRBAYCAN RESPUBLİKASI
DÖVLƏT İMTAHAN MƏRKƏZİ
www.dim.gov.az

BİNA :

ZAL :

**TAM ORTA TƏHSİL SƏVİYYƏSİ ÜZRƏ**
**BURAXILIŞ İMTAHANININ SUAL KİTABÇASI**

Şagirdin iş nömrəsi: ____________ Sıra: ___ Yer: ___

Soyadı, adı, atasının adı: ____________

**BƏYANNAMƏ**

Öz imzamla iş nömrəsi, soyadı, adı, atasının adı göstərilən şəxs olduğumu təsdiq edirəm. ________ *(imza)*

***ŞAGİRDİN NƏZƏRİNƏ!***

- "Sual kitabçası"nda 85 test tapşırığı təqdim olunur: 1-30 nömrəli tapşırıqlar xarici dil, 31-60 nömrəli tapşırıqlar Azərbaycan dili, 61-85 nömrəli tapşırıqlar riyaziyyat fənninə aiddir. Tapşırıqların cavablandırılması üçün 3 saat vaxt ayrılır.
- 1-3, 7-26, 31-45, 51-55, 61-73 nömrəli tapşırıqlar qapalı tipli tapşırıqlardır. Bu tapşırıqlarda 5 cavab variantından yalnız biri doğrudur. Doğru bildiyiniz variantı seçib "Cavab vərəqləri"nin I hissəsində həmin sualın nömrəsinə uyğun sətirdə müvafiq dairəni qaralayın. İki və daha artıq dairə qaralanarsa, cavab səhv hesab edilir.
- 74-78 nömrəli tapşırıqların doğru cavabını tapıb "Cavab vərəqləri"nin I hissəsində həmin sualın nömrəsinə uyğun hissədə xanalara yazıb hər xananın altındakı sütunda müvafiq dairəni qaralayın. Hər hansı bir xananın altındakı sütunda iki və daha artıq dairə qaralanarsa, cavab səhv hesab edilir.
- 4-6, 27-30, 46-50, 56-60, 79-85 nömrəli tapşırıqlar ətraflı şəkildə yazılı cavablandırılması tələb olunan açıq tipli tapşırıqlardır. Bu tapşırıqların həllərini və cavablarını "Cavab vərəqləri"nin II hissəsində həmin tapşırıqların cavablandırılması üçün ayrılmış hissədə səliqəli və oxunaqlı xətlə yazın.
- Dinləmə mətni üzrə təqdim olunmuş 1-6 nömrəli tapşırıqları cavablandırmazdan əvvəl nəzarətçinin audioqurğuda səsləndirdiyi mətni diqqətlə dinləyin. Dinləmə mətni üzrə tapşırıqların yerinə yetirilməsi aşağıdakı mərhələlərdə aparılır:
  - *Dinləmə mətni üzrə verilən tapşırıqlarla tanışlıq – 2 dəqiqə;*
  - *Dinləmə mətninin ilk dəfə səsləndirilməsi;*
  - *Dinləmə mətninin ilk dəfə səsləndirilməsindən sonra tapşırıqlara bir daha baxılması – 2 dəqiqə;*
  - *Dinləmə mətninin ikinci dəfə səsləndirilməsi;*
  - *Dinləmə mətni üzrə verilən tapşırıqların yerinə yetirilməsi.*
- Nəzərə alın ki, dinləmə mətni imtahan zamanı **yalnız** iki dəfə səsləndiriləcək.
- Köçürmək və köçürməyə şərait yaratmaq qəti qadağandır. İmtahan nəticələri emal olunarkən köçürmə hallarının mövcudluğu xüsusi olaraq araşdırılır. Belə hallara yol vermiş şagirdlərin nəticələri ləğv edilir!
- "Sual kitabçası"nda etdiyiniz qeydlər heç bir hüquqi əhəmiyyət ***daşımır.***
- İmtahan başa çatdıqdan sonra "Sual kitabçası"nı, "Cavab vərəqləri"ni mütləq zal nəzarətçisinə təhvil verin və "İmtahana buraxılış vərəqəsi"ndə nəzarətçinin imza etməsini tələb edin.
- Ətraflı şəkildə yazılı cavablandırılması tələb olunan açıq tipli tapşırıqlar meyarlar əsasında qiymətləndiriləcək.
- Səhv cavab ümumi bala təsir etmir.

**DİM – 05.03.2022**

# Stresin idarə edilməsi

- **İmtahan stressi ilə necə mübarizə aparmalı?**

- **"4-7-8" Texnikası:** Həyəcanlandıqda 4 saniyə nəfəs alın, 7 saniyə saxlayın, 8 saniyəyə yavaşca buraxın. Bu, beyninizə "hər şey qaydasındadır" siqnalı göndərir.

- **Su için:** Həyəcan zamanı ağız boşluğunun quruması normaldır. Yanınızda gətirdiyiniz sudan kiçik qurtumlar alın.

- **Sualdan qorxmayın:** Əgər ilk sualı həll edə bilmirsinizsə, dərhal növbəti suala keçin. Çətin sualla inadlaşmaq zaman və enerji itkisidir.

- **Pozitiv daxili dialoq:** "Mən buna hazıram", "Səhv edə bilərəm, amma əlimdən gələni edəcəm" kimi cümlələrlə özünüzü motivasiya edin.

DÖVLƏT İMTAHAN MƏRKƏZİ

# Diqqət edilməli məqamlar

## Uğurlu imtahan üçün:

•**Soyuqqanlı olun:** İmtahan binasına daxil olduğunuz andan etibarən yalnız suallara fokuslanın.

•**Zamanı idarə edin:** 3 saatlıq vaxtdan səmərəli istifadə edin və cavabları cavab vərəqində köçürmək üçün sonda əlavə vaxtın verilməyəcəyini unutmayın.

•**Dürüstlük prinsipi:** Başqasının cavablarına baxmaq və ya köçürməyə şərait yaratmaq hər iki şəxsin nəticəsinin ləğvi ilə nəticələnir.

•**Şəxsi məsuliyyət:** Cavab vərəqini nəzarətçiyə təhvil verdiyinizdən və buraxılış vərəqənizi imzalatdırdığınızdan əmin olmadan zalı tərk etməyin.

•**Valideynlərə ismarış:** Övladınızın imtahan binasına qadağan olunmuş əşyalarla (telefon, ağıllı saat və s.) girmədiyinə əmin olaraq onlara ən böyük dəstəyi vermiş olursunuz.

DÖVLƏT İMTAHAN MƏRKƏZİ

# Nəticənin ləğv olunma səbəbləri

## Hansı hallarda nəticələr ləğv oluna bilər?

•**Qadağan olunmuş əşyalar:** Mobil telefon, ağıllı saat, ötürücü qurğular, hesablayıcı, konspekt, lüğət, çanta, kəsici alət və s. ilə binaya gəldikdə

•**Davranış:** Yerini dəyişdikdə, kiməsə köçürməyə şərait yaratdıqda və ya nəzarətçiyə tapşırıq barədə sual verməyə cəhd etdikdə

•**Qida:** Binaya yemək, içki (şəffaf qabda qazsız su istisna olmaqla), yüksək məbləğdə pul, qızıl zinət əşyaları, saqqız və s. gətirdikdə

•**Diqqət:** Qaydaları pozan şagird imtahandan xaric edilir və nəticələri ləğv olunur.



DÖVLƏT İMTAHAN MƏRKƏZİ

# İMTAHANIN SONU

•**Təhvil vermə:** İmtahan qurtardıqda cavab vərəqini nəzarətçiyə təhvil verərək buraxılış vərəqənizi imzalatmalısınız.

•**Sual kitabçası:** İmtahanın sonuna qədər iştirak edənlər sual kitabçasını özləri ilə apara bilərlər.

•**Məsuliyyət:** Cavab vərəqini təhvil vermədən imtahan zalını tərk etdikdə imtahan nəticəsi ləğv edilir.

# Diqqət!

**Şagird və valideynlər üçün xüsusi qeyd**

- Şagird imtahan binasından çıxdıqdan sonra imtahanın gedişi ilə bağlı şikayətlərə baxılmır.
- İmtahanın gedişatında hər hansı problem yaranarsa, bina daxilində zal nəzarətçisinə və ya imtahan rəhbərinə dərhal müraciət edilməlidir.
- Sualların məzmunu və nəticələr ilə bağlı narazılıq yaranarsa, nəzərdə tutulmuş tarixdə *dim.gov.az* saytı üzərindən apellyasiya müraciəti edilə bilər

# İmtahanın şəffaflığı və ədalətlilik

## Biz necə hazırlaşırıq?

- İmtahan proqramlarının və modelinin hazırlanması
- Test tapşırıqlarının hazırlanması
- Texniki və təşkilati hazırlıq
- Çap və məxfilik
- İmtahanın təşkili
- Yoxlama və nəticələrin elan edilməsi



# Valideynlər üçün "Qızıl" məsləhətlər

## Əziz valideynlər!

- **Təmkinli olun:** Sizin həyəcanınız övladınıza ikiqat ötürülür. Gülümsəyək və ona güvəndiyimizi hiss etdirək.

- **Müqayisə etməyin:** Onu başqalarının nəticələri ilə qorxutmayaq. Bu gün onun üçün ən böyük dəstək bizim sevgimizdir.

- **Bina önündə gözləmə:** İmtahan binasının tam girişində izdiham yaratmayaq. Bu, şagirdlərdə "məni kənarda camaat gözləyir" təzyiqi yarada bilər.

- **İmtahandan sonra:** Nəticəsindən asılı olmayaraq, onun çəkdiyi əməyi qiymətləndirək.

# DİQQƏTİNİZƏ GÖRƏ TƏŞƏKKÜR EDİRİK!